KAMRAN İMANOV

# DAVAMLI İNKİŞAFDA BİLİK VƏ MƏDƏNİ ƏNƏNƏLƏRİN QORUNMASI: ƏQLİ MÜLKİYYƏT HÜQUQUNUN ROLU

Bakı – 2018

**Kamran İmanov,**

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri.

**“Davamlı inkişafda bilik və mədəni ənənələrin qorunması və əqli mülkiyyət hüququnun rolu”. Bakı, 2018**

Bu kitabça Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanovun, Müəllif Hüquqları Agentliyinin Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə birgə 23 aprel 2012-ci il tarixində keçirilən “Yaradıcıdan – kitaba, müəllifdən – müəlliflik hüququna” mövzusunda beynəlxalq konfransda etdiyi çıxış sözü və “Davamlı inkişafda bilik və mədəni ənənələrin qorunması və əqli mülkiyyət hüququnun rolu” adlı təqdimat əsasında hazırlanmışdır.

**© Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi, 2013, 2014, 2015, 2016, 2017**
**© Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi, 2018**

# Mündəricat


| | | |
|---|---|---|
| | Çıxış sözü .................................................... | 5 |
| I. | Mədəniyyətin müasir anlamı cəmiyyətin davamlı inkişafının zəmini deməkdir ............. | 14 |
| II. | Əqli mülkiyyət “mədəniyyətin” xidmətində ..... | 16 |
| III. | ƏM fərdi və kollektiv kreativliyin qorunmasında ............................................... | 18 |
| IV. | Mədəni ənənələrin (qeyri-maddi mədəni irsin) strukturu və qorunması ........................ | 19 |
| V. | Qorunub-saxlanma və hüquqi qorunma nə deməkdir? ..................................................... | 21 |
| VI. | Mədəni ənənələr sosial-iqtisadi inkişafda ..... | 24 |

# Çıxış sözü

Hörmətli dostlar, xanımlar və cənablar!

23 aprel UNESCO tərəfindən elan edilən və Azərbaycanda artıq 1997-ci ildən başlayaraq ənənəvi şəkildə qeyd edilən Ümumdünya Kitab və Müəlliflik Hüququ Günüdür. Müəlliflik hüququnun Kitab ilə təmasda olması, «Yaradıcıdan Kitaba, Müəllifdən Müəlliflik Hüququna» yolu heç də təsadüfi deyil. Məşhur Volterin kəlamı ilə desək, «onlar ocaqlarımızdakı oda bənzəyir: onu qonşudan götürüb, özümüzdə yandırıb, digərlərinə veririk və beləliklə, onlar hamıya məxsusdur».

Kitab və Müəlliflik Hüququ Gününü birgə qeyd etdiyimiz tədbirlərin məqsədi «bilik mənbəyi olan və yeni bilik yaradan», «bir oxunan Kitabın bəhrəsi olan yeni Kitaba yol açan» müəlliflik və müəlliflik hüququnun mədəni irsimizdəki əhəmiyyətini bir dəfə də açıqlamaq, davamlı iqtisadi inkişafda və informasiya cəmiyyətinin formalaşmasında rolunu diqqətə çatdırmaq, əqli mülkiyyət yaradıcılarına öz hörmət və ehtiramlarımızı bildirmək və mədəni ənənələrimizin qorunub saxlanmasında və xüsusən erməni mənimsəmələrinə qarşı çıxmağın fəallaşmasını cəmiyyətimizin diqqətində saxlamaqdan ibarətdir.

Hörmətli dostlar!

Gələcəyə baxışımız kreativ və innovasiyalı cəmiyyətin formalaşması ilə bağlıdır. Cənab Prezident İlham Əliyevin dediyi kimi, «müasir dünya sivilizasiyasının tərəqqisində insan kapitalı və intellekt yeni keyfiyyət amili kimi həlledici əhəmiyyət daşıyır».

«Dəmirə və betona əsaslanan iqtisadiyyat» ardıcıl olaraq «biliklərə əsaslanan» iqtisadiyyata çevrilir (BMT-nin 2010-ci ilindəki hesabatında qeyd olunduğu kimi «kreativ», yəni müəlliflik hüququna əsaslanan iqtisadiyyat

qlobal böhran şəraitində, o zamankı dünya ticarətinin 12% aşağı düşmüş, 14% illik artımla irəliləyib).

Dünya rəqəmləşir, yalnız Avropa rəqəmli kitabxanasında 35 dildə 135 mln. rəqəmli sənədlər mövcuddur, Google-Edition 3 mln. artıq kitab təklif edir. Mütəxəssislərin hesablamalarına əsasən, yaradılan rəqəmli informasiyanın həcmi 2010-ci ildə 1,2 Zetta byt (1 Zetta byt = $2^{70}$ = $10^{21}$ byt) çatıb, hətta əhəmiyyətsiz məlumatı istisna etsək də bu çox böyük rəqəmdir. Müəyyən, təxmini hesablamalara əsasən 2011-ci ilin may ayı səviyyəsində yalnız Creative Commons, yəni sərbəst istifadə çərçivəsində dünyada 580 mln.-dan artıq əsər yayılırdı.

Ancaq bu gün diqqəti müəlliflik hüququnun mədəniyyətdəki roluna yönəltmək istəyirəm.

Dövlətimiz mədəniyyətin inkişafına müasir nöqteyi-nəzərdən yanaşaraq, mədəni müxtəlifliyi qoruyur, mədəniyyətlərarası dialoqun təşkilatçısı qismində çıxış edir.

Mədəni müxtəliflik varsa, deməli hamıya aid olunan mədəni, o cümlədən müəlliflik hüququ və digər əqli mülkiyyət hüquqları yaşayır və inkişaf etdirilir. Mədəni kapitalın mənbəyi olan mədəni müxtəliflik tanınır və qorunub saxlanılırsa, deməli mədəni irs zənginləşir və əqli mülkiyyətin yeniçilik və kreativlik xəzinəsi həvəsləndirərək artır. Belə ki, yaradıcılıq və kreativlik fenomenindən irəli gələn və əqli mülkiyyətin başında duran Müəlliflik hüququ bəşəriyyətin böyük dəyərlərindən biri kimi insanların müstəsna və universal, təbii resurslarından irəli gələn yaradıcılıq və yenilikçiliyi dəstəkləyir, əqli fəaliyyətin ən yüksək zirvəsinə zəmin olur, azadlıq və sərbəstlik nəticələrin keşiyində durur.

«Qara qızılı insan kapitalına çevirmək», cənab Prezident İlham Əliyevin kreativliyə və yenilikçiliyə verilən ən böyük dəstəkdir. Müasir dünyada müəlliflik hüququnun bir sıra nəzəriyyələri mövcuddur. Bunların üstündə dayan-

madan, qeyd etməliyik ki, bunlar bütövlükdə iki sistemləşmiş konsepsiya çərçivəsindədir.

Birincisi, fərdi-hüquqa, və ikincisi isə kütləvi-hüquqa əsaslanır. Fərdi hüquq nəzəriyyəsinin yanaşması «insana hüquqlar onun təbiətinə əsasən məxsusdur». Kütləvi-hüquq nəzəriyyəsi isə «hüquqlara dövlət verir» əhkama əsaslanır. Ancaq məşhur Quber isbat etdiyi kimi, «kütləvi hüquq gəlir və gedir, fərdi hüquq isə qalır» və məşhur filosof F.Xayekin sözlərinə görə, «kütləvi hüquq» fərdi hüququn pozulmaması zəmanəti kimi yaradılır. Odur ki, müəlliflik hüququnun yaranma mənbəyi əqli fəaliyyətin fərdin təbiətindən və cəmiyyətə böyük fayda gətirməsinin dövlət tərəfindən dərk edilməsinin nəticəsidir. Burada «hüquq borcu doğmur, borc bu hüququ doğur». Müəllif hüquqlarının bir incə məqamı da ondan ibarətdir ki, yaradıcılığa dəstək verərək, bu hüquq hər bir fərdin bənzərsizliyini və təkrarolunmazlığını qoruyur. Özü də yaradıcılıq prosesinin muxtariyyətinə müdaxilə etmədən, çünki yaradıcılıq məkanında hüquq sərhəd qoymağa qadir deyil.

Bununla yanaşı, hüququn ümumilik prinsipinə əsaslanaraq müəllif hüquqları cəmiyyətin hər bir üzvünə şamil olunur və bununla hər bir insana bəhrələnmək imkanı verir.

O da bir həqiqətdir ki, «kiminsə hüququ, digərinin vəzifəsidir» və digərləri qarşısına qoyulan məhdudiyyət çərçivələri «cəmiyyət-yaradıcı şəxs» tərəflərinin mənafelərinin tarazlığına gətirən sosial kontrakt kimi çıxış edərək, tərəflərin hər birinə fayda gətirir.

Yaradıcı fərdlərin zəkasının törəmələri, intellektual nailiyyətləri onların ilk növbədə şəxsi müvəffəqiyyətlərindən bəhs edərək, əsər, ixtira, müəlliflik və patent hüququ obyekti kimi ümummilli xəzinəyə daxil olur, xalqın intellektini zənginləşdirir. Millətin isə əqli nailiyyətləri ənənəvi

mədəni nümunələrdə və ənənəvi biliklərdə cəmləşir, qeyri-maddi mədəni irsdə özünü ifadə edir. Hansılar ki, keçmiş nəsillər tərəfindən qorunub saxlanılıb və bugünkü nəsil tərəfindən yaradılır, hansılar ki, bizi bu dünyaya gələndən, beşikdən qarşılayaraq son mənzilimizə qədər müşayiət edirlər.

Odur ki, dövlət başçısının səyləri nəticəsində Azərbaycanın əqli mülkiyyət sahəsinin zəngin qanunvericilik bazası yaradılıb, 1996-cı ildən qüvvədə olan «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında» Qanuna, müasir rəqəmli mühitlə və ənənəvi biliklərin qorunması ilə bağlı əlavələr və dəyişikliklər aparılıb, Şərqi Avropa məkanında ilk qəbul olunan «Folklorun hüquqi qorunması haqqında» Qanuna əlavələr daxil olunub və yeni «ƏMH təminatı və piratçılığa qarşı mübarizə haqqında» Qanun yaxınlarda qüvvəyə minəcək.

Azərbaycanın müəlliflik hüququ sahəsində təcrübəsi Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT) vasitəsilə təbliğ olunur, Avropa ekspertləri tərəfin-dən TVİNNİNQ layihəsi çərçivəsində dəstəklənir. Lakin, Beynəlxalq hüquq normalarına məhəl qoymayan erməniçilik bəhanələr sırasında «Qarabağın erməni xalqının» azad yaşamaq, baxımsızlığı istəyi ilə «izah» etməyə çalışırlar, «millətlərin öz müqəddəratını həll etmək hüququ» ilə pərdələnirlər. Azərbaycan qanunlarını rədd edərək, ƏM sahəsində beynəlxalq Konvensiyaların öhdəliklərindən yan keçərək, Azərbaycan xalqının, Azərbaycan müəlliflərinin hüquqlarını pozurlar, mənimsəyib özününküləşdirirlər. Odur ki, saxtaçılıq yolu ilə qonşularının hesabına «böyük Ermənistan» və «böyük erməni mədəniyyəti» xülyası ilə yaşayanlara məşhur ingilis fəlsəfəçisi və hüquqşünası ideoloji liberalizmin və analitik liberal hüquq məktəbinin, utilitar fəlsəfənin banisi İeremiya Bentamın XVIII əsrdə dediyi sözləri xatırlatmaq yerinə düşərdi: «Prinsiplərə riayət

etməkdən imtina edən xalqlar gec-tez gücə tabe olmalıdırlar».

Müəlliflik hüququnun təbiətini araşdıraraq onun tarixiliyini nəzərə almalıyıq, elə o səbəbdən ki, hüququn özü tarixidir, törəmədir, aposterioridir. Təbiətdə hüquq yoxdur, insanın əqli fəaliyyət nəticələrinə müdaxilə edən hüquq incə sərhədlərə malikdir, insan təfəkkürü təbiət ilə birlikdə hüququn genezis və inkişaf prosesində mühüm rol oynayır. «Hüquq yabanı ağacın mədəni bəhrəsi deyil, mədəniləşdirilmiş ağacın bəhrəsidir».

Müəlliflik hüququnun bugünkü vəziyyətini xarakterizə edərkən, Azərbaycan xalqının çoxəsrlik müəlliflik hüququ ənənələrini diqqətə almamaq olmaz. Azərbaycan müəlliflik hüququnun kökləri lap qədim dövrlərə, ibtidai-təbii anonim anlayışının müəlliflik şəxsiyyəti ilə əvəz edildiyi dövrlərə gedib çıxır. 1300 illiyini bu yaxınlarda qeyd etdiyimiz «Kitabi-Dədə Qorqud» buna parlaq nümunə ola bilər, hərçənd bəzi məlumatlara görə Qorqudun təsvir etdiyi hadisələr eramızın ilk əsrlərinə aid edilir. Məhz həmin əsrlərdə folklor nümunələrini yazıya almaqla yanaşı, öz müəlliflərinin adlarını da qoruyub saxlayan əsərlər meydana çıxmağa başlayır. Orta əsr Azərbaycanında azərbaycanlı müəlliflər – aşıqlar, öz müəllifliklərini əbədiləşdirməyin orijinal formasını tapdılar və bu, bütün Şərqə yayıldı. Yaradıcının əsl adı və poetik ləqəbi hökmən şerin – nəğmənin son beytinə, «tapşırma»ya salınırdı. Müasir müəlliflik hüququ terminologiyası ilə ifadə etmiş olsaq, bu müəllifin şəxsi hüquqlarının qorunmasının aktiv forması idi. Tapşırmadan mənimsəmələr və ya onun dəyişdirilməsi adi mülki hüquqla – adətlə təqib edilirdi və plagiatçılıq edən şəxslər ictimai nifrətə məruz qalırdılar. Azərbaycanda müəllifin şəxsi hüquqlarının mühafizə olunması ənənələri və kağız istehsalının gur inkişafı sayəsində Tusi, Təbrizi, Mərzban, Həbibulla Gəncəvi, Marağayi, Naxçivani, Xaqa-

ni, Beyləqani, Məhsəti Gəncəvi, Nizami, Füzuli, Nəsimi və digər Azərbaycan alimləri və şairlərinin əlyazmaları orta əsrlərdən günümüzə qədər gəlib çatmışdır.

Bugünkü müəllif hüququ ənənəsində müəllifin əmlak hüququ adlandırılanlar o vaxtlar mesenatçılıq xarakteri daşıyırdı. Vergil, Horatsi, Marsial öz himayədarlarının – mesenatların maddi köməyi ilə yazıb-yaratdıqları kimi böyük Azərbaycan memarı Əcəmi Naxçivani də özünün ən gözəl əsərlərini Azərbaycan Atabəylərinin sifarişi və himayəsi ilə yaratmışdı. Azərbaycan Şirvanşahları Seyid Yəhya Bakuvi kimi görkəmli alim-filosof, Xaqani və Fələki kimi məşhur şairlərə himayədarlıq edirdilər. Dahi Nizami Gəncəvi özünün «Xosrov və Şirin» poemasına görə böyük hökmdar Qızıl Arslan tərəfindən xüsusi bəxşişlə mükafatlandırılmışdı.

Məlum olduğu kimi, Qutenberqin çap üsulunu kəşf etməsi müasir müəlliflik hüququnun formalaşmasının başlanğıcı hesab edilir. Azərbaycanın Ağqoyunlu və Səfəvilər dövlətlərinin Qərbi Avropa ölkələri, xüsusilə də Venesiya Respublikası ilə xarici əlaqələri sayəsində 1594-cü ildə Romada «Mediçi» məntəqəsində ilk azərbaycanlı müəllifin kitabı çap üsulu ilə nəşr olundu. Bu kitab böyük Azərbaycan alimi Nəsrəddin Tusinin, XIX əsrin sonlarınadək Asiya və Şərq ölkələrində həndəsə və cəbr fənləri üzrə ən yaxşı dərslik hesab edilən və əlyazması halında hələ 1248-ci ildən mövcud olan «Təhriri-Oqilidis» əsəri idi. Bu əsər sonralar 1598-ci ildə, latın dilinə çevrildikdən sonra isə 1657-ci ildə Londonda təkrar nəşr olundu və lap bizim dövrə qədər Avropa məktəblərində ondan dərslik kimi istifadə edilirdi. XVII əsrdən, şrift üsulu ilə kitab nəşrinin fəal inkişaf etdiyi Səfəvilər dövründən Azərbaycanda müəlliflik hüququ müasir mənada qəbul edilməyə başlamışdı və onun tənzimlənməsi adi hüquq çərçivəsində həyata keçirilirdi.

Xalqımızın zəngin müəlliflik ənənələri sayəsində müəlliflik hüquqlarının Azərbaycanda təşəkkül tapmasının qısa tarixçəsi belədir.

Tamamilə təbiidir ki, Azərbaycanın müasir, bugünkü müəlliflik hüququ latın və anqlo-sakson hüquq ənənələrinin, ÜƏMT-nın və inkişaf etmiş ölkələrin ən yaxşı təcrübələri ilə tamamlanmış və zənginləşdirilmişdir.

Fransız yazıçısı Şatobrianın sözləri ilə desək, «hüquq borcu yox, borc hüququ doğurmuşdur». Cəmiyyətin, dövlətin Azərbaycan alimləri, mədəniyyət xadimləri qarsısında borcu müəlliflik hüququnu kristallaşdıraraq, bugünkü səviyyəyə çatdırmışdır.

Hörmətli konfrans iştirakçıları!

Bu sözləri təmsil etdiyiniz hər bir cəmiyyətə, mədəniyyətə, hər nümayəndə-fərdinə, hər birinizə ünvanlamaq olar: «Mədəniyyətimizin qəlbi qəlbimizin mədəniyyətindən irəli gəlir».

Biz Azərbaycanlılar öz mədəni müxtəlifliyimizi, mədəni, əqli mülkiyyət hüquqlarımızı və özünəməxsusluğumuzu qoruyub saxlamaqla yanaşı, eyni dərəcədə digər xalqların mədəni müxtəlifliyini də hörmət və ehtiram bildiririk. Azərbaycanın Birinci Xanımı, UNESCO və İSESKO-nun Xoşməramlı səfiri Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda çıxış edərkən dediyi kimi, «…əgər biz sabahı düşünürüksə, gələcək nəsillər qarşısında öz məsuliyyətimizi dərk ediriksə, biz xalqlararası millətlərarası münasibətləri məhz etika və ədalət platformasından qurmağa çalışmalıyıq».

UNESCO-nun “Mədəni müxtəliflik üzrə Universal Bəyannaməsi”nə əsasən, hər bir mədəniyyət cəmiyyətə xas olan intellektual nailiyyətlərlə yanaşı, mənəvi, maddi və emosional əlamətlər məcmusudur. Xüsusilə qeyd edirəm ki, mədəniyyət millətin həyat tərzində, “birgə yaşayış bacarığında” və ənənələrindədir.

Odur ki, mədəni müxtəliflik və mədəni hüquqlar siyasi mifologiyanı, digər xalqın torpaqlarına və mədəni irsinə iddiaları rədd edir, etnik təmizləməni və assimilyasiya siyasətini, ksenofobiyanı, eyni zamanda, bir millətin "əzabkeşliyindən" irəli gələn "müstəsnalığını" və "xüsusi missiyasını", bunun nəticəsi kimi, onun mədəni müxtəlifliyinin absurd dərəcədə şişirdilməsini və "mədəni" relyativizm bəhanəsi ilə insan haqlarının pozulmasına bəraət qazandırılmasını qəbul edə bilməz.

Bu gün Azərbaycan ərazisinin 20%-i işğal altındadır və buradakı mədəni irsimizin maddi və qeyri-maddi nümunələri Ermənistan tərəfindən talan və məhv edilir, mədəni ənənələrimiz, hətta müəlliflik hüququ ilə qorunan əsərlərimiz mənimsənilir. Lakin bu, Azərbaycan mədəniyyətinə vurulan yeganə zərbə deyil.

Etnoloji üzvi əlaqələr yaradıcılıqda və mədəni ənənələrdə etnosun həm təbii-bioloji, həm də yaradıcı-mənəvi gücünü təbiət və doğma torpaqla, iqlim və coğrafi arealla bağlayır. Bu gün 1 milyon nəfər qaçqın və köçkünü olan azərbaycanlılar öz coğrafi məkanında – dünya ictimaiyyəti tərəfindən musiqi konservatoriyası kimi qəbul edilmiş Qarabağda yaradıcılıq və ənənələri yaşatmaqdan da məhrum olmuşlar. Bu isə Azərbaycanın mədəni irsinə vurulan digər zərbədir.

Liberalizmin klassiki Fridrix fon Xayekə görə, mədəni ənənələr nə təbii, nə də süni məhsuldur, ortaq bir yaranmadır. Bunların təbii yaranma və inkişafı müəyyən ərazidəki iqlim, flora, faydalı qazıntıların yoluna bənzəyir və tarixi proses bu ənənələri vacib təbii resursa və milli sərvətə çevirir. Bununla ənənələr nəinki mədəni, eləcə də iqtisadi, ərazi inkişafı aləti olur. Bundan məhrum olmağımız bizə vurulan daha bir zərbədir.

Keçmiş əsrin ən böyük mütəfəkkirlərindən sayılan avstriyalı Fridrix fon Xayekin sözlərini xatırlatmaq yerinə

düşərdi: «İnsanları cəmləşdirən, həyatını mümkün edən onların fəaliyyətinin nizamlanmasıdır, vərdişlərinin duşunülmüş qayda-qanunlarla əvəz edilməsi və hüquqi normalara riayət edilməsidir».

Beynəlxalq normalara riayət etmədiklərinə görə ərazilərimizə göz dikənlərə qarşı hər zaman mübarizə aparılacaqdır. Çünki mədəniyyətin qəlbi qəlbin mədəniyyətidirsə, işğalçı qəlbinə mədəniyyət yaddır.

Artıq bütün dünyaya məlumdur ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yürütdüyü siyasət mədəni müxtəlifliyi dəstəkləyərək, multikulturalizmdən irəli gələn mədəni plüralizm və tolerantlığı, mədəni hüquqların, ƏM hüquqlarının qorunmasını nəzərdə tutur. Azərbaycan UNESCO-nun mədəniyyət və mədəni irsə aid, ÜƏMT-nın müəlliflik hüququ və digər əqli mülkiyyət hüququna dair bütün beynəlxalq konvensiyalarının fəal iştirakçısıdır və fəal iştirak etmək əzmindədir.

Çıxışımı iki kəlamla bitirmək istəyirəm. Qədim latınların dediyi kimi, «Azadlıq qanunla icazəli olan hər şeyi etmək imkanıdır» və bizim qədim əcdadlarımızın atalar sözü ilə: «Ədaləti kənarda axtarmamaq üçün özün ədalətli ol».

Təşəkkür edirəm.

# Davamlı inkişafda bilik və mədəni ənənələrin qorunması və əqli mülkiyyət hüququnun rolu

## I. Mədəniyyətin müasir anlamı cəmiyyətin davamlı inkişafının zəmini deməkdir

**1.** Mədəni müxtəliflik: ölkədə “mədəniyyət” və “cəmiyyət”in mürəkkəb sistemi kimi.




- 1-də müxtəlifliyin artması → 2-də müxtəlifliyin məhdudlaşdırılması;
- 2-də müxtəlifliyin artması → 1-də müxtəlifliyin azalması = sistemin entropiyasının artması;
- Entropiyanın artması Eşbinin qərar qəbulunda və idarəetmədə fundamental prinsipi “zəruri müxtəlifliyin” pozulmasıdır.
- “Mədəniyyətin” özünübərpa potensialının istifadəsi (uzunmüddətli zaman kəsiyi), yoxsa siyasi iradəyə, ənənəyə əsaslanan adekvat dövlət qərarlarının verilməsi?

**2.** Mədəniyyətlərarası münasibətlər: mədəni müxtəlifliyin tanınması və universal dəyərlərin bölüşdürülməsi yolu ilə inteqrasiyadır.




- 1-N şəxsdən ibarət olan tərəflərin əks-ziddiyyəti olmayan kooperativ oyun $F(f_1,...,f_N) \neq 0$.
- Davamlı tarazlıq nöqtəsinin (Neş) axtarışında məlumatın ötürülməsi, çoxtərəfli əməkdaşlıq.
- Tərəflərə fayda gətirən mədəniyyətlərarası dialoqun qurulması.

## II. Əqli mülkiyyət “mədəniyyətin” xidmətində

- Mədəni müxtəlifliyə hörmət və ehtiram = mədəni hüquqların, o cümlədən ƏMH həyata keçirilməsidir.
- Mədəni müxtəlifliyin tanınması və qorunub saxlanması = “mədəni kapitalda” zənginləşdirilən kreativliyin və yenilikçiliyin həvəsləndirilməsidir.




- ƏM – obyektiv əks edilmiş əqli fəaliyyət nəticələri.
- ƏM – yaradıcılıq və yenilikçiliyə, innovasiyalı və yaradıcılıq məhsul və xidmətlərinin geniş yayılmasına əlverişli mühit formalaşdıran əsas vasitə.
- ƏM dünyası cəmiyyətdə biliklərin dövranıdır.


Qeyri-maddi nemətlər
Maddi nemətlər
Yeni biliklər və məlumatlar
4
Əqli fəaliyyət nəticələri (ƏFN)
Yeni biliklərin və məlumatların obyektivləşdirilməsi
5
Əqli, o cümlədən yaradıcılıq fəaliyyəti
3
ƏM obyektləri
6
Əldə olunmuş biliklər və məlumatlar, onların yığılması
2
Əldə oluna bilən biliklər, məlumatlar
1
İqtisadi dövriyyədə ƏM obyektlərinin istifadəsi
7
Subyektin şüuru
Obyektiv əks olunmuş ƏFH=ƏM=ƏMH
Obyektiv reallıq

## III. ƏM fərdi və kollektiv kreativliyin qorunmasında

- Fərdi səviyyə: müəlliflik hüququ obyektləri və sənaye mülkiyyət obyektlərinin qorunmasının qanunvericilik bazası.




- Kollektiv səviyyə: ənənəvi mədəni nümunələrin (folklor) və ənənəvi biliklərin qorunmasının qanunvericilik bazası.

Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında qanun

Folklor nümunələrinin hüquqi qorunması haqqında qanun

## IV. Mədəni ənənələrin (qeyri-maddi mədəni irsin) strukturu və qorunması







***Folklor nümunəsi* – xalqın, onun ayrı-ayrı fərdləri tərəfindən yaradılan və qorunub saxlanılan, xalqın ənənəvi-bədii dəyərlərini, dünyagörüşünü, ümid və arzularını, bədii irsin xarakterik xüsusiyyətlərini özündə əks etdirən şifahi şəkildə yaradılan söz sənəti nümunələri, xalq musiqisi, oyunları və rəqsləri, xalq sənətkarlığı və tətbiqi sənət nümunələri (maddi formada olan və olmayanlar), eləcə də digər xalq yaradıcılığı nümunələri** ("Azərbaycan folklor nümunələrinin hüquqi qorunması haqqında" Azərbaycan Respublikası Qanunu);

***Ənənəvi biliklər* - ənənəyə əsaslanan əqli yaradıcılıq fəaliyyətinin nəticəsi olan və nəsildən-nəslə ötürülərək qorunub saxlanılan sənaye, elm, ədəbiyyat və incəsənət sahəsindəki yeniliklər və yaradıcılıq nəticələri.**

# V. Qorunub-saxlanma və hüquqi qorunma nə deməkdir?

(UNESCO, "Qeyri-maddi mədəni irsin qorunub saxlanması" Konvensiyası, 2003-cü il)







❖ Hüquqi qorunmanın mexanizmi:

- ənənəvi biliklərin və ənənəvi mədəni nümunələrin xalqa (millətə) məxsus olmasının normativ-hüquqi bəyannaməsi (xalqa məxsus mülkiyyət);
- əqli mülkiyyətə məxsus olan hüquqi qorunma rejiminin tətbiq edilməsi;
- qeyri-qanuni istifadəyə və xüsusən mənimsəməyə qarşı çıxılması;
- pozuntulara qarşı müəyyən edilmiş cəza sanksiyalarının həyata keçirilməsi.

❖ ƏMH və ƏB əqli mülkiyyətə çevrilməsi yolları:

- xüsusi qanunvericilik və yaxud ənənəvi qanunların dəyişməsi vasitəsi ilə;
- normativ-hüquqi aktlar vasitəsi ilə.

❖ Nümunələr.

a) “Azərbaycan folklor nümunələrinin hüquqi qorunması haqqında” Qanun




- Folklor nümunəsinin mənbəyi, yarandığı yerin coğrafi adı və (və ya) mənsub olduğu xalqın (cəmiyyətin) adı göstərilməlidir (maddə 8).
- 6-cı və 8-ci maddələrin tələblərinin yerinə yetirilməməsi hüquq pozuntusudur.
- Digər dövlətlərin hüquqi və fiziki şəxsləri Azərbaycan Respublikasının hüdudlarından kənarda folklor nümunələrindən kommersiya məqsədi ilə yalnız müvafiq icra hakimiyyəti orqanının icazəsi əsasında və istifadəyə görə haqq ödəməklə istifadə edə bilərlər (maddə 6.3).

**b) “Müəllif hüquqları və əlaqəli hüquqlar haqqında” Qanun**



## VI. Mədəni ənənələr sosial-iqtisadi inkişafda

1. Ənənələr sadəcə humanitar deyil, üstəlik təbii-elmi fenomendir.
2. Ənənələrin yaranması düşünülmüş, rasional niyyətin nəticəsi deyil, təbii seçmə və seleksiya yoludur.
3. Mədəniyyət nə təbii məhsul, nə də süni törəmədir.
4. Mədəniyyət və mənəviyyatın evolyusiyası: "Adət və ənənələr məntiq, psixoloji və zaman mənasında instinkt və idrak arasında yerləşir" (F. fon Xayek).
5. Ənənələrin yaranma və dəyişilmə yolu, onların ötürülməsi.
6. Ənənələr – mühit şərtlərinə uyğunlaşan qeyri-rasional alətlərdir.
7. Ənənələr dəyərli mədəni resurs olmaqla yanaşı, iqtisadi, ərazi inkişafı resursudur.
8. Ənənələrin nəzərə alınması və qeyri-klassik rasionallıq (Xayek paradoksu).

---

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyində hazırlanmışdır.